https://doi.org/10.59849/3006-2403.2025.2.14

***Fərrux RÜSTƏMOV***
***Pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi***
***ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrası***
***E-mail: farrukhrustamov@gmal.com***
***https://orcid.org./0000-0003-2033-1678***

# NİZAMİ GƏNCƏVİNİN ƏXLAQ DƏRSLƏRİ

*Açar sözlər:* Azərbaycan şairi, Nizami Gəncəvi, islam sivilizasiyası, Şərq humanizmi, əxlaq dərsləri, mənəvi kamillik, ədalət

*Giriş.*

İslam sivilizasiyasının XII əsrdə yaşadığı intellektual yüksəliş dövrü — yəni İslam İntibahı yalnız elmdə, fəlsəfədə və texnologiyada deyil, həm də ədəbiyyatda və mənəvi-əxlaqi düşüncədə öz parlaq nümayəndələrini yetişdirdi. Bu parlaq simalardan biri də Nizami Gəncəvidir. Nizami Gəncəvi ölməz əsərləri ilə bu intibahın hadisəsinə çevrildi. Onun yaradıcılığı təkcə Şərq ədəbiyyatında yox, bütövlükdə İslam mədəniyyətində, ədəbi-bədii düşüncədə köklü dəyişikliklərə səbəb oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Nizami Gəncəvi "ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır."

Nizami klassik ərəb-fars ədəbiyyatında formalaşmış estetik prinsipləri zənginləşdirərək, məzmun və forma baxımından yeni bir mərhələnin əsasını qoydu. Onun əsərlərində həm Qurani-Kərim və İslam fəlsəfəsi ilə vəhdət təşkil edən əxlaqi ideyalar, həm də antik dövrün rasional düşüncəsi vəhdət təşkil edir. Bu baxımdan o, yalnız şair deyil, həm də mütəfəkkir və əxlaq müəllimidir.

Əgər İbn Sina və Əl-Fərabi İslam İntibahının intellektual təməlini təşkil edirsə, Nizami Gəncəvi bu intibahın mədəni-mənəvi sütunu və simvoludur, mənəvi-estetik zirvəsidir, onların yaratdığı düşüncə məbədinin qəlbi və ruhudur. O, Şərq əxlaqi düşüncəsinin ali ideallarını poeziyanın gücü ilə elə incəliklə təqdim etmişdir ki, bu dəyərlər həm xalqın, həm də hökmdarların zehni və mənəvi dünyasında dərin iz buraxmış və onların təfəkkürünün ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan ədəbiyyatının zirvəsində dayanan böyük şair və mütəfəkkir Nizami Gəncəvi yalnız şair deyil, həm də dərin fəlsəfi-əxlaqi düşüncələri ilə bəşər mədəniyyətinə mühüm töhfələr vermiş bir müdrikdir. Onun əsərləri təkcə poetik kamilliyi ilə deyil, həm də insani, mənəvi və əxlaqi dəyərlərin zənginliyi ilə seçilir. "Xəmsə" adlanan beşliyində Nizami insanın daxili aləmi, cəmiyyət qarşısında məsuliyyəti, ədalət, vicdan, sədaqət və mərhəmət kimi yüksək əxlaqi keyfiyyətləri dərindən təhlil edir.

*Nəzəri hissə*

Nizami Gəncəvinin əxlaqi görüşlərinin əsasında İslam mənəviyyatı, Qurani-Kərimdəki ədalət və insanlıq prinsipləri, təsəvvüf fəlsəfəsi, antik hikmət ənənələri və Şərq humanizmi

dayanır. O, bu qaynaqları yalnız təqlid etməmiş, onları yaradıcı şəkildə sintez edərək özünəməxsus bədii-fəlsəfi əxlaq modeli formalaşdırmışdır.

Nizami Gəncəvi mənəvi kamilliyə yönəlmiş humanist əxlaq sisteminin tərənnümçüsüdür. Onun əsərlərində insanın məqsədi — sadəcə yaşamaq yox, kamilliyə çatmaq, öz nəfsini tərbiyə etmək, əxlaqi borcunu yerinə yetirmək və dünyada iz qoymaqdır. O, bu baxımdan "əxlaq və kamillik məktəbi"nin banilərindən sayılır.

Əxlaq bütün dövrlərdə mütəfəkkir insanların, peyğəmbərlərin və filosofların düşüncə mərkəzində dayanmışdır. Bu təsadüfi deyil. Əxlaq sadəcə nəsihətamiz cümlələr, aforizmlər, ya da bəlağətli ifadələr deyil — əxlaq insanın özüdür. Əxlaq — insanın daxilində daşıdığı vicdan, məsuliyyət, mərhəmət və ədalət hisslərinin sistemli ifadəsidir. Biz əxlaq deyəndə əslində insanın mahiyyətini, onun kimliyini nəzərdə tuturuq.

Bu səbəbdən əxlaq və insan anlayışlarını bir-birindən ayırmaq mümkün deyil. Əxlaqını soyunan insan əslində insanlığını da soyunmuş olur. Əgər insan mənəvi paltarını (əxlaqını) çıxarırsa, o artıq yalnız bioloji varlıq olaraq qalır və məna yükünü itirir. Bu, həm fərd, həm də cəmiyyət üçün eyni dərəcədə keçərlidir. Əxlaqdan uzaqlaşan fərd məhv olar, əxlaqdan üz döndərən cəmiyyət isə tarix səhnəsindən silinər.

Nizami Gəncəvi poeziyanın gücü ilə əxlaq fəlsəfəsini bədii-mənəvi təcəssümə çevirərək, insanı kamillik yoluna, ədalətə, mərhəmətə, vicdana və həqiqətə çağırmışdır. Onun böyük əxlaq məktəbi əsrlər boyunca insan ruhunun ən dərin qatlarına işıq saçmış, nəfsin məhdudiyyətlərini aşaraq varlığın ən incə, saf və parlaq mənəvi qatlarına doğru yüksəltmişdir. Bu məktəbdə insan yalnız ədəbi-etik dərs almır, eyni zamanda öz daxili aləminin dərinliklərinə səyahət edir, mənəvi paklığa qovuşur və həqiqi insanlığın — varlıq və kamilliyin zirvəsini fəth edir. Nizami Gəncəvinin əxlaq dərslərinin dərinliyi o qədər böyükdür ki, onları cild-cild kitablara toplamaq mümkündür. Biz isə bu geniş xəzinədən yalnız 6 əsas "dərs"i diqqətə çatdıracağıq.

**1. Əxlaqlı olmaq — insan olmaq deməkdir.**

Əxlaq insanlığın əsas şərtidir. Həqiqi insan olmaq üçün ədalət və mənəviyyat yolunu tutmaq lazımdır. Əxlaqsız insan sadəcə canlıdır, insan deyil. İnsanın varlığı və dəyəri onun əxlaqında cilvələnir. Böyük Nizami deyirdi ki, insanın insandan yalnız insanlığı artıqdır. Nizami üçün əxlaq insanın mahiyyətini təşkil edir. Onun fikrincə, gültək xoşxasiyyət olub, xoş ətirlər saçan insan dünyanı da o minvalla tərk edər. Anadan bədxasiyyət doğulan öləndə də həmin xislətlə dünyanı tərk edər.

**Xoş ətirlər saçmaq istəyən adam**
**Gültək xoşxasiyyət olmalı müdam...**
**Bədxislət doğulub hər kim anadan,**
**Ölər, o xislətlə də gedər binadan.**
**Kim gəlsə dünyaya xoşxislət, xoşhal,**
**Tərk edər dünyanı yenə o minval.**

Nizamiyə görə insanlığın əsl şərti — insaf, paklıq və əxlaqdır. İnsanlıq bu keyfiyyətlərdən məhrum olanlara aid deyil, onlar yalnız instinktiv varlıqdırlar. Nizami əxlaqı insanın özünü dərk etməsi, varlıq məqamına çatması ilə eyniləşdirirdi.

**2. Nəfsin tərbiyəsi və daxili kamillik**

Nizami Gəncəvi üçün əxlaqın əsasında insanın öz nəfsinə qalib gəlməsi dayanır. Nəfs — insanın içindəki ehtiras, eqoizm, tamah, qəzəb kimi aşağı istəklərin mənbəyidir. Bu istəklər tərbiyə olunmadıqda, insanın mənəvi süqutuna səbəb olur. Nəfsə qalib gəlmək isə sadəcə zahiri davranışları dəyişmək deyil — bu, daxili bir mübarizə, öz-özünü tanıma və dəyişmə prosesidir.

**"Ey əxi, nəfs itdir, onu çək dara,**
**Ruzi üçün açma əl alçaqlara".**

Bu misralar Nizaminin əxlaq fəlsəfəsinin əsasını təşkil edir: insan nəfsi ilə mübarizə aparmalı, onu tərbiyə etməli və beləliklə, həqiqi varlıq səviyyəsinə yüksəlməlidir. Peyğəmbər (s.ə.s.) nəfsə qalib gəlməyi "böyük cihad" ilə müqayisə edirdi.

Nizami təsəvvüf düşüncəsinə yaxın mövqe tutaraq, insanın həqiqi azadlığa yalnız nəfsini tərbiyə etməklə çata biləcəyini göstərir. Onun fikrincə, nəfsin əsarətində olan insan azad görünə bilər, amma içində ruhi əsarət yaşayır. Əsl azadlıq — nəfsdən azad olmaqdır.

Nizaminin qəhrəmanları da bu mübarizənin içindədirlər. Onlar zahiri qəhrəmanlıqdan çox, daxili qəhrəmanlığa — mənəvi kamilliyə doğru yol gedirlər. Beləliklə, "Xəmsə"dəki hekayələr bir növ əxlaq və nəfs tərbiyəsinin poetik simvolikasıdır. Nizamiyə görə ölçü-biçi əsasında yaşamaq özünü nəfsə, tamaha, yırtıcı ehtiraslara təslim etməməyi bacarmaq deməkdir. Yalnız bu dünyada gözəl yaşamaqla o dünyanı qazana bilərsən.

Məcnunun hekayəsi yalnız eşq yox, həm də nəfsdən təmizlənmə prosesidir. O, Leyliyə olan eşqi ilə maddi istəkləri, şöhrəti və nəfsi geridə qoyur. Bu, Nizami üçün sevgidə mənəvi saflaşmanın nümunəsidir.

Nizami Gəncəvi nəfsi sadəcə tənqid etmir, onu tərbiyə və təmizlənmə yolu kimi təqdim edir. Onun qəhrəmanları dünyanı yox, özlərini fəth etməyi öyrədir. Bu da bizi əxlaqın ən yüksək mərtəbəsinə – daxili azadlığa və mənəvi kamilliyə aparır.

**3. Mərhəmət və insaniyyət**

Nizami Gəncəvi üçün mərhəmət sadəcə bir hiss deyil — insan varlığının ali keyfiyyəti, insaniyyətin mayasıdır. O, mərhəməti fərdi duyğudan daha çox, ictimai və mənəvi məsuliyyət kimi dəyərləndirirdi. Nizaminin fikrincə, insanı insan edən, məhz başqasının dərdinə şərik olmaq bacarığıdır. Bu anlayış onun əsərlərində həm hökmdarın siyasətində, həm sadə insanın davranışında, həm də aşiqin halında təcəssüm edir.

Mərhəmət Nizamidə gücün deyil, ali ruhun təzahürüdür. O yazır ki, zalıma qarşı cəsarətli, zəifə qarşı şəfqətli olmayan bir fərd və ya cəmiyyət insani dəyərlərini itirmiş sayılır. Bu baxımdan mərhəmət təkcə hiss yox, əxlaqi seçim və davranış məsuliyyətidir.

Nizami qadına, qocaya, yetimə, yoxsula münasibətdə sadəcə rəhmdillik yox, daxili fəzilət, insani dərinlik və ədalət tələb edir. Bu ideyalar onu həm dövrü üçün, həm də bu gün üçün mənəvi liderə çevirir.

"Leyli və Məcnun" əsərində Məcnun sadəcə sevən bir gənc deyil. O, insanlığın, mərhəmətin və mənəvi təmizliyin rəmzidir. O, Leyliyə qarşı sevgisində heç bir şəxsi mənfəət güdmür, qarşılıq istəmir, onu öz eşqi ilə əzabdan qorumağa çalışır. Bu isə Nizami üçün fədakarlığın və mərhəmətin təcəssümüdür. Məcnun öz sevgisində nəfsindən və "mən"indən keçə bilir, yəni başqasının xoşbəxtliyini öz əzabından üstün tutur. Bu, Nizamiyə görə insaniyyətin ən yüksək mərtəbəsidir.

Nizami Gəncəvi üçün mərhəmət və insaniyyət sadəcə hiss və duyğu deyil, daxili zənginlik, əxlaqi üstünlük və kamilliyin meyarıdır. Onun qəhrəmanları öz mərhəmətləri ilə ucalır, zalıma qarşı çıxmaqla yox, zəifin halına yanmaqla özlərini ifadə edirlər. Bu, həm fərdi, həm də ictimai səviyyədə yüksək əxlaqın təcəssümüdür.

**4. Elm və hikmət – əxlaqi yüksəlişin şərti**

Nizami Gəncəvinin əxlaq fəlsəfəsində elm sadəcə məlumat toplama vasitəsi deyil, insanın mənəvi kamilliyə çatmasının zəruri mərhələsidir. Onun fikrincə, əxlaqlı olmaq istəyən insan əvvəlcə bilməli, anlamalı və dərk etməlidir. Elm — insana nəyi etmək və nəyi etməmək lazım olduğunu göstərən mənəvi mayakdır. Əgər əxlaq bir niyyət, bir istəkdirsə, elm bu niyyətin doğru istiqamətə yönəldilməsini təmin edən vasitədir. Yəni Nizami üçün əxlaq ilə elm ayrılmazdır. O, savadsızlığın yalnız cəhalət deyil, mənəvi korluq olduğunu bildirir və bunu ən böyük təhlükə sayır.

Burada söhbət təkcə riyazi, fəlsəfi və ya texniki elmlərdən getmir — özünü tanıma, varlığı anlama, kainatla və insanla bağlı hikmətli düşüncə də bu anlamda "elm" sayılır. Onun fikrincə, hər kəs könül kitabını oxumalıdır.

"Könül kitabı" — insanın daxili aləmi, vicdanı, öz varlığı üzərində düşünməsi deməkdir. Nizami bildirir ki, öz qəlbinə baxmayan, onu oxumayan insan həqiqəti görə bilməz və mənəvi zülmətdə qalar. Elm — bu qaranlığı işıqlandıran tək vasitədir. Ancaq onu da öyrənməyin şərtləri var:

**Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən.**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**

Nizami Gəncəvi elm və hikməti əxlaqın dayağı kimi təqdim edir. Onun fikrincə, əxlaq yalnız duyğu və inamla deyil, idrakla möhkəmlənməlidir. Cəhalət insanı təkcə nadan etmir, onu həm də zalim, qəddar və məsuliyyətsiz edir. Yalnız biliklə silahlanmış vicdan əxlaqın həqiqi yolunu görə bilər.

**5. Ədalət – əxlaqın sütunu**

Ədalət Nizami Gəncəvinin əxlaq fəlsəfəsində yalnız bir idarəçilik prinsipi deyil — bütün mənəvi sistemin mərkəzində dayanan təməl dəyərdir. O, ədaləti sadəcə hökmdarların və dövlət adamlarının deyil, hər bir fərdin mənəvi məsuliyyəti kimi təqdim edir. Nizami üçün ədalət — əxlaqın həyata keçmiş formasıdır. Əgər əxlaq insanın daxilində niyyət və dəyərlər sistemidirsə, ədalət onun cəmiyyətə və davranışa yönəlmiş konkret ifadəsidir.

O yazır ki, ədalət olmadan heç bir fəzilət sabit qala bilməz — nə mərhəmət, nə hikmət, nə də insanlıq. Ədalət həm fərdi, həm ictimai, həm də siyasi münasibətlərin vacib tarazlıq ünsürüdür. O, mənəvi harmoniya və sosial nizamın qoruyucusudur.

Bu baxış Nizamini müdrik ədalət fəlsəfəsinin daşıyıcısına çevirir. Onun əsərlərində ədalət nə zorakılıq, nə də qorxu vasitəsidir. Ədalət — vicdanın qanunu, əxlaqın sütunu və zülmün qarşısını alan ən ali dəyərdir.

**Ədalət müjdəsilə cahanı şad eylə sən,**
**İşlər gör ki, iş olsun, yurdu abad eylə sən!**

və ya:

**Bu dünyada kim tapar ən böyük səadəti?**
**O kəslər ki, qoruyar, gözləyər ədaləti!**

Bu misralarda Nizami ədalətin zahirən hüquqi, əməldə isə əxlaqi təmələ söykəndiyini bildirir. Ədəb, yəni daxili tərbiyə və vicdan — ədalətə aparan açardır. Əxlaqi tərbiyə olmadan ədalət formaldır, ruhsuzdur. Yalnız ədəbli insan ədalətli ola bilər. Bu fikir ədalətin əxlaqi mahiyyətini aydın göstərir.

**6. Əxlaqlı cəmiyyət – fəzilətli cəmiyyət**

Nizami Gəncəvinin baxışında cəmiyyətin sağlamlığı və rifahı birbaşa fərdlərin əxlaqi səviyyəsindən asılıdır. Fərdin daxilində baş verən mənəvi saflaşma, cəmiyyətin xarici quruluşuna və münasibətlər sisteminə sirayət edir. Fərabiyə görə, əgər cəmiyyətin fərdləri kamil və əxlaqlı olarsa, cəmiyyətin özü də fəzilətli olacaq. Nizami bu fikri poetik şəkildə ifadə edir və ictimai ədaləti, dövlət başçısının əxlaqi məsuliyyətini əsas yerə qoyur.

Nizami üçün əxlaqlı cəmiyyət — insani dəyərlərə söykənən, zəiflərin müdafiə olunduğu, ədalətin hökm sürdüyü bir məkandır. Belə cəmiyyətin qurulması isə təsadüfi deyil — bu, həm xalqın mənəvi təhsili, həm də idarəedici şəxslərin (hökmdarların) vicdanı və ədaləti ilə bağlıdır. Onun əsərlərindəki ideal cəmiyyət modeli — biliklə idarə olunan, əxlaqi əsaslara söykənən və ədalətə xidmət edən bir quruluşdur. Nizami hökmdarları yalnız güc sahibi kimi deyil, xalqın mənəvi halına cavabdeh əxlaqi nümunə kimi görür.

*Nəticə*

Qeyd etdiyimiz kimi, Nizami əxlaqlı cəmiyyətin əsasını ədalət üzərində qurur. Onun poetik ideyalarında ədalət – əxlaqın ictimai formasıdır. Nizami Gəncəvi üçün ədalət – fərdin vicdanında başlayıb, cəmiyyətin quruluşunda təcəssüm edən bütöv bir əxlaq sistemidir. Əgər əxlaq sütundursa, ədalət onun dayağıdır. O olmadan insan da, cəmiyyət də çökməyə məhkumdur. Nizaminin ədalət fəlsəfəsi, sadəcə dövrünə yox, bütün zamanlara ünvanlanmış mənəvi çağırışdır.

Nizami Gəncəvi yaradıcılığı təkcə bədii-estetik baxımdan deyil, həm də fəlsəfi-əxlaqi dəyəri ilə Azərbaycan və ümumilikdə İslam mədəniyyətinin mənəvi tarixində mühüm yer tutur. O, poeziyanı əxlaq fəlsəfəsinin təbliğ vasitəsinə çevirərək, insanı nəfsin qaranlıq qüvvələrindən azad edən, onu vicdan, mərhəmət, ədalət və kamillik idealına yönəldən bir mənəvi məktəb yaratmışdır.

Nizaminin əxlaq fəlsəfəsində insanın dəyəri onun iç dünyası, davranışı və ictimai məsuliyyəti ilə ölçülür. O, əxlaqı sadəcə fərdi keyfiyyət kimi deyil, həm də cəmiyyətin qurucu prinsipi kimi qiymətləndirir. Onun əsərlərində ədalət, elm, mərhəmət və hikmət bir-biri ilə bağlı olan əsas əxlaqi sütunlardır.

Bu baxımdan Nizami Gəncəvi yalnız dövrünün deyil, bütün zamanların əxlaq müəllimidir. Onun ideyaları bu gün də insan və cəmiyyət münasibətlərində mənəvi təməl olaraq öz aktuallığını qoruyur. Nizaminin yaradıcılığı sübut edir ki, əxlaqdan məhrum cəmiyyət – zəifləyir, əxlaqlı cəmiyyət isə inkişaf edir, yüksəlir.

Ona görə də Nizaminin əxlaq dərsləri bu günün insanı üçün də ciddi yol göstərici, mənəvi kompas rolunu oynamaqdadır. Əxlaq və mənəviyyat mövzusunda bəşəriyyətin qarşısında duran çağırışlar fonunda Nizaminin fikirləri həm elmi, həm də mənəvi istiqamətləndirici gücə malikdir.

Nizami Gəncəvinin mənəvi-əxlaqi prinsipləri yalnız klassik dövr üçün deyil, müasir insan üçün də böyük əhəmiyyət daşıyır. Onun əsərlərindəki mərhəmət, ədalət, daxili kamillik və nəfsin tərbiyəsi prinsipləri bu gün informasiya texnologiyaları, sosial media və qloballaşan dünya kontekstində də aktuallığını qoruyur. Müasir dövrdə əxlaq yalnız fərdi davranışla məhdudlaşmır, həmçinin onlayn məkan, sosial şəbəkələr və informasiya mühitində də məsuliyyətli olmaqla ifadə edilir.

Beləliklə, Nizaminin əxlaq dərsləri müasir dövrdə texnologiya və informasiya çağında da insanı kamilliyə, mərhəmətə, ədalətə və vicdana yönəldən etibarlı mənəvi kompas rolunu oynayır.

## ƏDƏBİYYAT


1. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/az/articles/view/3896
2. Nizami Gəncəvi. Xəmsə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1998.
3. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı: "Azərbaycan" nəşriyyatı, 2004.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi. "Lider nəşriyyat",  Bakı, 2004,
5. Nizami Gəncəvi və folklor.Bakı:Nurlan, 2013, 214 s.
6. Babayeva T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı: 2000
7. Rüstəmov F. Nizami və Azərbaycan pedaqoji elmi. "Pedaqoji tədqiqatlar: axtarışlar, tapıntılar". Bakı:ADPU,1996-cı il, № 1, s.12-20

***Фаррух РУСТАМОВ***
***Доктор педагогических наук, профессор***

**МОРАЛЬНЫЕ УРОКИ НИЗАМИ ГЯНДЖЕВИ**
***РЕЗЮМЕ***

*Ключевые слова:* азербайджанский поэт, Низами Гянджеви, исламская цивилизация, восточный гуманизм, уроки морали, духовное совершенство, справедливость

Низами Гянджеви (1141–1209) был одним из выдающихся представителей интеллектуального расцвета исламской цивилизации XII века. Его творчество внесло художественно-эстетические и морально-этические изменения не только в восточную литературу, но и в исламскую культуру в целом. Низами был не только поэтом, но и мыслителем и учителем этики; в его произведениях синтезированы исламская философия, принципы Корана, суфийская мысль и античные мудрости.

Моральные уроки Низами сосредоточены на внутреннем мире человека и его ответственности перед обществом. Основные принципы таковы:

*Быть моральным — значит быть человеком.* Основа человечности — это мораль, справедливость и чистота. Человек без этики — лишь инстинктивное существо, а не настоящий человек.

*Воспитание себя и внутреннее совершенство.* Человек должен преодолевать свои низменные желания — эгоизм, жадность, гнев — и управлять своим «я» (нафс). Это путь к моральной свободе и внутреннему совершенству. История Маджнуна служит поэтическим примером этого принципа.

***Сострадание и гуманность.*** Сострадание — высшее качество человека. Низами рассматривает его как личную, общественную и моральную ответственность. Его герои проявляют бескорыстие, участвуют в страданиях других и воплощают идеи социальной справедливости.

***Знания и мудрость.*** Знания необходимы для достижения морального совершенства. Для Низами этика и знание неразделимы; знания направляют совесть и способствуют правильному развитию морали. «Книга сердца» — источник для познания внутреннего мира и совести человека.

***Справедливость — столп морали.*** Справедливость является основой моральной системы и влияет на устройство общества, начиная с совести каждого человека. Без морального воспитания справедливость становится формальной и лишённой духа.

***Моральное общество — добродетельное общество.***Благополучие общества зависит от морального уровня его членов. Общество, состоящее из этичных людей, основывается на гуманности, сострадании и справедливости. Для Низами идеальное общество опирается как на моральное развитие народа, так и на справедливое управление правителя.

Морально-этические принципы Низами Гянджеви актуальны не только для классического периода, но и для современного человека. Принципы сострадания, справедливости, внутреннего совершенства и воспитания себя направляют как личную, так и общественную жизнь, включая информационные технологии, социальные сети и глобализирующийся мир, служа надёжным моральным компасом.

***Farrukh RUSTAMOV***
***Doctor of Pedagogical Sciences, Professor***

**MORAL LESSONS OF NIZAMI GANJAVI**

***SUMMARY***

*Keywords:* Azerbaijani poet, Nizami Ganjavi, Islamic civilization, Eastern humanism, moral lessons, spiritual perfection, justice

Nizami Ganjavi (1141–1209) was one of the most prominent figures of the intellectual flourishing of Islamic civilization in the 12th century. His works contributed to artistic, aesthetic, and moral-ethical transformations in Eastern literature and, more broadly, in Islamic culture. Nizami was not only a poet but also a thinker and teacher of ethics; his writings synthesize Islamic philosophy, the principles of the Qur'an, Sufi thought, and ancient wisdom traditions.

Nizami's moral lessons focus on the inner world of the individual and their responsibilities toward society. The main principles can be summarized as follows:

***Being moral means being human.*** The foundation of humanity lies in ethics, justice, and purity. A person devoid of ethics remains merely an instinct-driven being rather than a fully realized human.

***Self-discipline and inner perfection.*** Individuals must overcome their base desires—egoism, greed, and anger—and govern their "nafs" (self). This is the path to moral freedom and inner perfection. The story of Majnun serves as a poetic illustration of this principle.

***Compassion and humaneness.*** Compassion represents the highest quality of human existence. Nizami presents it as a personal, social, and moral responsibility. His heroes embody altruism, empathize with the suffering of others, and exemplify the ideals of social justice.

***Knowledge and wisdom.*** Knowledge is essential for attaining moral perfection. For Nizami, ethics and knowledge are inseparable; knowledge guides the conscience and fosters the proper development of moral character. *The Book of the Heart* serves as a key source for understanding the inner world and conscience of the individual.

***Justice—the pillar of morality.*** Justice forms the foundation of the moral system and influences the structure of society, beginning with the conscience of each individual. Without moral education, justice becomes formalistic and devoid of spirit.

***Moral society—a virtuous society.*** The well-being of society depends on the moral caliber of its members. A society composed of ethical individuals rests on humaneness, compassion, and justice. For Nizami, an ideal society relies on both the moral development of the people and the just governance of its ruler.

The moral and ethical principles of Nizami Ganjavi remain relevant not only to the classical period but also to contemporary life. His teachings on compassion, justice, inner perfection, and self-discipline continue to guide both individual and societal life, serving as a reliable moral compass even in the context of information technologies, social media, and an increasingly globalized world.

***Daxil oldu: 06.11.2025-ci il***